# TARİXDƏ İZ BURAXANLAR: SÜLEYMAN RƏHİMOV

Süleyman Hüseyn oğlu Rəhimov 1900-cü il martın 22-də Qubadlı rayonunun Əyin kəndində anadan olub. Atası Hüseyn bəy, anası Gülsabah xanımdır. Atası Hüseyn bəy oğlunun təhsil almasına çox çalışıb. Süleyman kənd mollasından əlifbanı öyrənib, sonra Qubadlıda beşillik rus məktəbində oxuyub.

Gələcək ədibin uşaqlıq və gəncliyi çətin illərə, inqilabi mübarizələr və sarsıntılar dövrünə təsadüf edib. O, milli dövlətin qurulduğu və fəaliyyət göstərdiyi illəri görüb. Azərbaycanda Sovet hakimiyyəti milli demokratik respublikanı devirdikdən sonra Süleyman Rəhimov nahiyə inqilab komitəsində kənd mirzəsi işləyib. 1921-ci ildə Şuşada açılan pedaqoji kursa göndərilib və burada təhsilini başa vurduqdan sonra Qubadlı, Laçın, Zəngəzur rayonlarında bir müddət müəllimlik edib. Müəllimliklə yanaşı o, çalışdığı kənd və rayonlarda həm də ictimai işlərdə fəal iştirak edib. Təhsilinin azlığını hiss edən Süleyman 1928-1931-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxuyub, həm də savadsızlığı ləğv edən kurslarda dərs deyib. Ədibin yazıçılıq fəaliyyətinə başlaması bu illərə təsadüf edir. O, hələ universitet tələbəsi ikən “Şamo” romanının ilk variantını yazıb və bu roman 1931-ci ildə çapdan çıxıb.

Süleyman Rəhimov universiteti bitirdikdən sonra bir müddət partiya və dövlət işlərində fəaliyyət göstərib. O, Rayon Partiya Komitəsinin katibi, Bakı Partiya Komitəsində təbliğat işləri üzrə katib, Azərbaycan Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdir müavini vəzifələrində çalışıb. 1941-45-ci illər müharibəsi dövründə Sovet qoşun hissələri ilə Təbrizə gedib. Cənubi Azərbaycanın bir çox şəhər və kəndlərini gəzib, “Vətən yolu” qəzetində “Səngərli” imzası ilə çıxış edib, Təbriz uşaqlarının ağır həyatını təsvir edən “Nənəmin ölümü” hekayəsini yazıb.Süleyman Rəhimov Azərbaycan ədəbiyyatında nəsrin inkişafı sahəsində misilsiz xidmətləri olan bir ədib kimi tanınıb. Yarım əsrlik yaradıcılıq fəaliyyəti ərzində o, nəsrdə ədəbiyyatımızın bu dövrünün ən mühüm vəzifələrini həyata keçirib, xalqımızın tarixini və həyatını əks etdirmək yolu ilə irəliləyib.Süleyman Rəhimov, hər şeydən əvvəl, tanınan bir romançıdır. Azərbaycan romanının təşəkkülü və inkişafı bilavasitə yazıçının yaradıcılığı ilə sıx bağlıdır. Maraqlıdır ki, Süleyman Rəhimov ədəbiyyata romanla gəlib və roman bütün çoxillik yaradıcılıq fəaliyyəti dövründə onun nəsrinin əsas janrı olaraq qalıb. Doğrudur, Süleyman Rəhimovun nəsri janr cəhətdən rəngarəng və müxtəlifdir. O, hekayə və povestlərin, romantik və satirik-yumoristik səpkidə yazılan nəsr əsərlərinin də müəllifidir. Fəqət bununla belə o, hər şeydən əvvəl, mahir və usta bir romançıdır. Roman ədibin yaradıcılığında əsas və mərkəzi yer tutur. Onun qələmindən çıxan romanlarda xalqımızın həyatı, milli xarakteri elə geniş və realist dərinliklə əks olunur ki, bu romanlar yalnız ədibin yaradıcılığında deyil, yeni dövr Azərbaycan ədəbiyyatında da mühüm hadisələrdən hesab edilir.Süleyman Rəhimov çoxcildli romanların müəllifidir. Onun “Şamo”, “Saçlı” romanları bucəhətdən xüsusilə diqqətəlayiq əsərlərdir. Həmin romanlarda yazıçı qəhrəmanlarını əsrin və həyatın böyük ictimai hadisələri və konfliktləri içərisində təsvir edib, əsas obrazların xarakterlərini açıb, insani keyfiyyətlərini göstərib. Süleyman Rəhimov ədəbiyyata “Şamo” romanı ilə gəlib və bu əsər üzərində əlli ilə yaxın çalışıb. Romanın 1931-ci ildə işıq üzü görən variantı çox yığcam və kiçik həcmli olub. Xeyli keçəndən sonra, 1940-cı ildə əsərin hadisələrin epik təsvirini verən yeni variantının birinci cildi, 1949-cu ildə isə ikinci cildi çapdan çıxıb. Bu roman müasir Azərbaycan ədəbiyyatının böyük bədii nailiyyəti olaraq qarşılanıb. Romanın üçüncü cildi 1964-cü ildə, sonuncu

cildi isə 1978-ci ildə nəşr olunub. Beləliklə, "Şamo" ədibin, demək olar ki, yaradıcılıq fəaliyyətinin böyük bir dövrü ərzində onunla yol yoldaşı olub. Arada "Saçlı", "Ağbulaq dağlarında", "Ana abidəsi", "Qafqaz qartalı" romanlarını və bir neçə povestini yazsa da, yazıçı fikrən "Şamo"dan, onun qəhrəmanlarından ayrılmayıb. Romanın gələcək taleyi, hadisələrin necə inkişaf edəcəyi, qəhrəmanların mübarizəsi və həyatı onu heç vaxt rahat buraxmayıb. O, məqalələrinin birində yazırdı ki, "Bədii yaradıcılıq dərin tədqiqat və psixoloji axtarışdır". Ədibin romanlarının hər biri, o cümlədən "Şamo" da bunu təsdiq edir. Roman üzərində yazıçının çoxillik işini həqiqətən də "dərin tədqiqat və psixoloji axtarış" hesab etmək olar.

Roman əsrin əvvəllərində, daha dəqiq desək, 1917-1920-ci illrdə Azərbaycanda cərəyan edən hadisələri, xalq hərəkatını, mürəkkəb ictimai prosesləri epik vüsət və genişlikdə əks etdirir. Vaxtilə bu cür əsərlərin mövzusu və buna uyğun olaraq onların janrı inqilabi-tarixi mövzu və janr kimi təyin edilirdi. Fəqət qeyd edilməlidir ki, inqilabi-tarixi cəhət bu romanın mövzu və janrının yalnız bir xüsusiyyətidir. Əslində, "Şamo" yalnız inqilabi prosesləri yox, XX əsrin əvvəllərində Azərbaycan xalqının milli azadlıq hərəkatını əks etdirən bir romandır. Yazıçı bu roman vasitəsilə Azərbaycanın 1917-1920-ci illərdəki sosial mənzərəsini canlandırmağa çox böyük əhəmiyyət verib. Yazıçının qəhrəmanları Şamo və Fərzəli yaranan sosial mübarizənin alovları içərisində bərkiyir və mətinləşir. Şamo romanda böyük bir mübarizə məktəbi keçir, siyasi mübarizədə yeniləşir. Yazıçı Şamonun simasında siyasi hadisələr burulğanına düşən yeni Azərbaycan gəncliyinin obrazını təcəssüm etdirə bilib.Aydındır ki, Süleyman Rəhimov "Şamo" romanını Sovet ədəbiyyatının prinsipləri mövqeyindən yazıb və buna görə romanda bir çox tarixi hadisələri, məsələn, 1918-1920-ci illərin hadisələrini - türk ordusunun xilaskarlıq məqsədilə Azərbaycana daxil olması, Müsavat hökuməti dövrü ilə bağlı əsl həqiqətləri olduğu kimi göstərə bilməyib. Fəqət bu cəhətlərlə yanaşı, əsərin əhəmiyyətini, Azərbaycan romanının inkişafında tutduğu yeri də danmaq olmaz. Qeyd olunmalıdır ki, 1917-1920-ci illərin hadisələri tariximizin son dərəcə mürəkkəb və ziddiyyətli hadisələrindəndir. Müxtəlif zamanlarda bu hadisələrə münasibət də, o cümlədən onların bədii ədəbiyyatda inikası da mürəkkəb olub. Süleyman Rəhimov həmin hadisələri 30-40-cı illərin ideoloji meyarlarından çıxış edərək romanında əks etdirib. Hazırda isə həmin hadisələrə daha obyektiv münasibət yaranmaqdadır və təbiidir ki, onları indi biz tamamilə yeni şəkildə, yeni siyasi təfəkkürlə izah etməli və qiymətləndirməliyik. Ancaq bu cür yanaşma romanın roman olaraq məziyyətlərini, onda dövrün mürəkkəb hadisələrinin əks olunması xüsusiyyətlərini görməyimizə və dəyərləndirməyimizə mane olmamalıdır. Əslində,"Şamo" mürəkkəb, ziddiyyətli, hətta faciəvi və dramatik bir epoxanın gerçəklərini, insanlarını təsvir etmək sahəsində milli romanımızın ilk təşəbbüsüdür və bu cəhəti ilə həm yazıçının yaradıcılığında, həm də ədəbiyyatımızın inkişafında mühüm bir hadisədir."Şamo"nun üzərində işlədiyi dövrdə Süleyman Rəhimov ikinci romanı olan "Saçlı"nı yazıb. Bu romanda da yazıçı böyük bir dövrü – 30-cu illərdən müharibənin qurtardığı illərə qədərki dövrü əhatə etməyə çalışıb.Süleyman Rəhimov xalq qəhrəmanlarının obrazına əsərlərində geniş yer verən bir yazıçıdır. "Aynalı" povestində o, xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərin bənzərsiz obrazlarını yaradıb. 1942-ci ildə çapdan çıxan bu balaca kitabça cəmi 52 səhifə idi. Amma yazıçı qırxıncı illərdə Nəbi ilə bağlı şifahi və yazılı sənədləri toplayıb ayrıca kitabça şəklində dərc etdirib. Nəbi haqqında müstəqil epopeya olan üç kitablıq "Qafqaz qartalı" romanının birinci cildi 1971-ci, ikinci cildi 1973-cü, üçüncü cildi isə 1975-ci ildə çapdan çıxıb. Süleyman Rəhimov bu əsərə bütün Zaqafqaziyanın siyasi həyatını əhatə edən geniş bir roman xarakteri

verib. Qaçaq Nəbi Süleyman Rəhimovun özünün mənsub olduğu Zəngəzur dağlarının oğlu idi və yazıçı onun əfsanəvi igidliyini əbədiləşdirməyə çalışıb. Əsərdə bir tərəfdən xalq fonu, digər tərəfdən qaçaqçılıq hərəkatı səhnələri, o bir tərəfdən isə Qafqaz çanişinliyinin dəftərxana həyatı əhatəli şəkildə qələmə alınıb. Yazıçının Nəbinin igidliyinə münasibəti daha çox romantik boyalarla verilir və onun xalq kökləri ön plana çəkilir.Satirik nəsrin də bir sıra gözəl nümunələrini yaradan görkəmli ədib üçün psixoloji üslub daha çox səciyyəvidir. Müharibə illərində yazdığı “Medalyon”, habelə 60-cı illərdə qələmə aldığı “Məhtaban” povestləri nəsrimizdə bu üslubun parlaq nümunələri sayılmağa layiq əsərlərdəndir.Süleyman Rəhimovun realist psixoloji üslubda yazdığı nəsr əsərlərindən biri də “Mehman” povestidir. Ədib onu 1944-cü ildə yazıb. Povestin qəhrəmanı Mehman qəhrəmanlar cərgəsində qeyd olunmağa layiqdir. Hətta belə demək olar ki, Mehman ədibin yaratdığı müsbət qəhrəmanlar sırasında özünəməxsus xüsusiyyətlərə malik bir insan portretidir və ədibin yaradıcılığında o, xüsusi bir yer tutur.

Uzun yaradıcılıq illəri ərzində yazıçı öz təfərrüatlı, sözlə yüksəlmiş olan yaradıcılıq üslubunu formalaşdırmışdı. Bu üslub bir tərəfdən yazıçının yaxşı bildiyi canlı xalq dilinə, onun şifahi ləhçəsinə, digər tərəfdən isə onun öz yaradıcı fantaziyasına söykənirdi. Böyük dövlət və partiya vəzifələrində işlədiyinə görə onun ərəb əlifbası ilə yazdığı əsərləri, demək olar ki, redaktə edilmir və yazıldığı şəkildə çap edilirdi. Onun romanlarının uzun və iki-üç cilddən ibarət olmasının bir səbəbi də bu idi. Bu xüsusiyyəti ilə yazıçı özünü dünya ədəbiyyatında epopeyalar yazmış klassiklərə bənzədir və bununla fəxr edirdi. Fəqət onun romanlarının çox uzun olmasına tənqidi yanaşanlar, bunu qüsur və uzunçuluq sayanlar da olub. Süleyman Rəhimov isə onun üslubunu tənqid edənlərə qarşı sərt mübarizə aparıb, özüslubunu bədii bir hal kimi müdafiə edib. Doğrusu, onun yaradıcılığı 1930-1950-ci illərdə nəsrimizin inkişafında özünəməxsus yer tutur. O, ədəbiyyatı həyatdan gələn zəngin tiplər qalereyası ilə zənginləşdirib, kənd mövzusunun, bir sıra folklor süjetlərinin işlənməsində böyük xidmətlər göstərib.Bu da bir həqiqətdir ki, ədəbi prosesimizdə Süleyman Rəhimov yaradıcılığının özünəməxsus, sanballı bir yeri var. Roman janrının həyatı əhatə miqyası onun əsərlərində daha da genişlənib. “Şamo” romanı yarım əsrdən çox bir dövrü əhatə edir. “Saçlı” romanı ictimai quruluşdakı kəskin dəyişikliklərə və bunun meydana çıxardığı problemlərə həsr edildi. Geniş fantaziyaya, ictimai hadisələrin mahiyyətini müşahidə qabiliyyətinə malik olan yazıçı gələcək uğrunda gedən mübarizənin ön cəbhəsində dayanırdı. Hər zaman, hər yerdə xalqın, dövlətin marağı, idealı onun üçün birinci dərəcəli məsələ olub.Süleyman Rəhimovun yazıçılıq enerjisinə, heç bir zaman sönməyən yazıb-yaratmaq həvəsinə qibtə etmək olardı. O, eyni zamanda, fəal ictimai xadim idi. Əsərlərini mühüm dövlət işlərini görə-görə yazırdı... Gecə-gündüz yazırdı...Süleyman Rəhimov 1954-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik edib. İctimai və ədəbi fəaliyyətinə görə orden və medallarla təltif olunub, 1975-ci ildə Sosial Əməyi Qəhrəmanı adına layiq görülüb.Yeni dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Süleyman Rəhimov 1983-cü il oktyabr ayının 11-də vəfat edib, Bakıda Fəxri xiyabanda dəfn edilib.

Allah rəhmət eləsin.

**Fazil QARAOĞLU Professor**

**Bakı xəbər.- 2018.- 31 yanvar.- S.13.**